IP Nr. 24-AZ

# Pul vacibdir

## AN-də öz imkanlarına arxalanmaq



“Hər bir AN qrupu...”

“...kənardan təklif olunan yardımdan imtina edərək tamamilə öz imkanlarına arxalanmalıdır.” – Yeddinci Ənənə

Bizim qurucu üzvlərimizdən birinin AN xidmət ofisinin qarşısında zibil qutularını eşələyərkən görülməsi ilə bağlı Anonim Narkomanların ilk günləri haqqında bir hekayə var. Ondan nə etdiyini soruşanda, Alyaskada olan bir AN üzvünün məktubuna cavab verə bilmək üçün poçt markası almaq məqsədilə depozit kimi geri qaytarmağa butulka axtardığını dedi. Hər bir AN xidmət komitəsi bu sadə həqiqətlə nə vaxtsa mütləq üzləşib: Üzvlərimizin fərdi səyləri çox şeyi dəyişə bilər, amma yalnız istək özü məktubu Kaliforniyadan Alyaskaya, Brüsseldən St.Peterburqa və ya Tehrandan Dubaya aparmayacaq.

Bu hekayə Yeddinci Ənənəmiz tərəfindən təsvir olunduğu kimi iki növ töhfəni göstərir. Biz bir tərəfdən öz vaxt və gücümüzü sərf edirik: toplantılarda mütəmadi görünmək, iştirak etmək və yeni gələnlərlə bacardığımız qədər paylaşmaq. Ümidlərimiz və niyyətlərimiz vacibdir, amma önəmli olan nə *etdiyimizdir*. Biz sponsorluq və xidmətlə məşğul oluruq. Biz əvəzində heçnə gözləmədən, təmənnasız şəkildə özümüzdə olanları ötürürük. Minnətdarlığımızı əmələ çevirib Anonim Narkomanları dəstəkləmək, “təcrübəmizi yalnız başqalarına ötürməklə özümüzdə saxlaya bilərik” inancımıza həqiqi məna verir.

“Ümidlərimiz və niyyətlərimiz vacibdir, amma önəmli olan nə etdiyimizdir.”

Digər tərəfdən biz AN-in fəaliyyətini davam etdirməsi və böyüməsi üçün lazım olan xidmətlərin maliyyə xərclərini qarşılamağa kömək məqsədilə pul ianə edirik. Hər iki növ yardım önəmlidir - əslində, bir çox üzvlər vaxt, güc və pul sərf edir – amma bu broşürdə bizi maraqlandıran məsələ əsasən könüllü maddi yardımlardır. Qruplarımız

hər toplantının bir məqamında üzvlərimiz pul ianə edə bilsin deyə səbət, papaq, qutu və ya qab ötürür*. Səbətə qoyduğumuz pul qruplarımıza qapıları açıq saxlamağa və qapının ağzında toplantıya qatılıb-qatılmamaqla bağlı tərəddüd edən yeni gələn üçün xoş sağalma atmosferi yaratmağa imkan verir. Xidmət sistemimizə çatan o pul öz icmamızda və dünyanın hər yerində olan asılılara ümidin mövcud olduğunu bildirən xidmətləri dəstəkləməyə kömək edir. Necə ki kirayə, qida və s. kimi öz şəxsi xərclərimiz ildən ilə artır, həmin əsas xidmətləri maliyyələşdirmək üçün lazım olan məbləğ də, xüsusilə AN böyüdükcə və biz asılılara xəbəri çatdırmaq üçün əlavə yollar axtardıqca davamlı şəkildə çoxalır.

Bəzi üzvlərin digərlərindən bir az çox və ya bir qədər az ianə etdiyini görüb, "doğru" məbləği verib-vermədiyimizi düşünə bilərik. Ədalətli töhfə vermək hamının eyni məbləğdə pul verməsi demək deyil; bu hər birimizin malik olduğumuza uyğun şəkildə ianə etməyimiz deməkdir. Sağalma nəticəsində həyatımız yaxşılaşdıqca, çox zaman daha çox ianə edə bildiyimizi görürük. Bəlkə də toplantıya gələn yolda aldığımız içkilər və ya atışdırmalıqlar üçün səbətə qoyduğumuz məbləğin iki və ya üç qatını xərclədiyimizi anlayanda narahatlıq keçiririk. Bizim üçün nəyin ən dəyərli olduğunu anlayandan sonra, səbətə adətən bacardığımız qədər çox pul qoymağa qərar veririk. Bizdə az və ya çox olmasına baxmayaraq, xidmət sistemimizə ianə etmək bizə bəzi qorxularımızı buraxmağa kömək edən inamlı addımdır. Bu addım bizə mənəvi ehtiyaclarımız qarşılandıqca həyat problemlərimizin komfort səviyyəsinə endiyini xatırlada bilər. Bizim özümüzdən daha böyük Gücün qrup vicdanımız vasitəsilə ifadə olunacağına inamımız var.

* Biz bu MB-də ianələr toplamaq üçün qrupun istifadə edə biləcəyi hər hansı bir üsulu nəzərdə tutmaq üçün "səbət" sözündən istifadə edəcəyik.

"...əsas məqsədimizi irəli aparmaq..."

— On Birinci Konsepsiya

Əsas Mətndən tez-tez sitat gətirilən cümlə: "Yeni gələn hər bir toplantıda ən vacib şəxsdir, çünki biz təcrübəmizi yalnız başqalarına ötürməklə özümüzdə saxlaya bilərik". Bizim qruplarımız bu fikri bir çox yollarla həyata keçirir. Toplantı bitəndən sonra yeni gələn ev qrupunun bəzi üzvləri ilə danışır və onlardan biri yeni gələndən Əsas Mətninin olub-olmadığını soruşur. Yeni gələn kitabın qiymətini soruşaraq və ya "Yəqin gələn həftə birini ala bilərəm" deyərək cavab verə bilər. Digər üzvlər gülümsəyir və yeni gələnin kitabla getdiyinə əmin olurlar. Yeni gələn onlara pulu geri ödəmək barədə nəsə deyir və cavab sadədir: "Sadəcə gəlməyə davam et, beləcə bir gün sən də bir yeni gələn üçün kitab ala bilərsən."

"Yeni gələn hər bir toplantıda ən vacib şəxsdir, çünki biz təcrübəmizi yalnız başqalarına ötürməklə özümüzdə saxlaya bilərik."

AN-də öz imkanlarına arxalanmanı tətbiq etmək sadəcə hər birimizin öz xərclərimizi ödəməsi demək deyil; biz AN-ə sadəcə yalnız özümüzə qayğı göstərməklə deyil, eyni zamanda yeni gələnin sağalmaya gedən yolu tapması üçün şərait yaratmaqla borcumuzu qaytarırıq. Bizlərdən çoxumuz toplantılarda "yüz il təmiz qalsam belə, burda mənə verilən azadlığa görə heç vaxt AN-ə olan borcumu layiqincə ödəyə bilmərəm" deyildiyini eşitmişik. Asılılığımız dövründə etdiyimiz tək şey götürmək idi və bu da bizim daxilimizi boş saxladı. AN-də biz ötürənlər olmağı öyrənirik və bunun boşluğumuzu doldurduğunu görürük. İlk başlarda çoxlarımız bizə eləcə təmənnasız verilənləri geri qaytarmağa məcbur olduğumuzu hiss edirdik, lakin zamanla AN-in nə ola və edə biləcəyi ilə bağlı daha böyük rəsmi görməyə başladıqca, biz töhfə vermək üçün daha çox gələcəyə yönəlmiş istəkdən motivasiya almağa başladıq.

Bizdən əvvəl gələn AN üzvləri bizi bura gətirən yolu tapa bilməyimiz üçün əllərindən gələni etdilər. Onlar AN xəbərini paylaşmaq üçün toplantıların qapılarını açıq saxladılar, telefon xətti və posterlərin ödənişi üçün səbətə pul qoydular, xəstəxana və müəssisələrə ədəbiyyat apardılar və təqdimatlar keçirdilər. İndi bizim də başqa asılılara xəbərimizi eşitmək şansı vermək üçün həm fürsət, həm də məsuliyyətimiz var. Bizim maddi ianələrimiz hər səviyyədə xidmətlərin xərclərini ödəməyə kömək edir: yerli səviyyədə xəbəri çatdırmaq səyləri; bölgənin dəstəklənməsi və ərazilərə xidmətlər; dünya xidmətləri, yalnız mövcud AN icmalarını dəstəkləmir, həmçinin AN-i mövcud olmayan yerlərdə də əlçatan etməyə çalışır. Tərcümə səyləri, pulsuz və ya maliyyələşdirilən ədəbiyyat, icmanın inkişafı seminarları – bütün bu xidmətlər qlobal miqyasda hələ də əzab çəkən asılılara xəbərimizi əlçatan etmək üçün bütövlükdə AN-in adından həyata keçirilir.

Çoxlarımız AN-in adından edilən xidmətlərə görə müəyyən səviyyədə sahiblik və cavabdehlik hiss edirik. Öz vaxt və pulumuzu AN-ə ianə etmək bizə bu hissləri möhkəm şəkildə yaşamağa və proqram və xidmət sistemi ilə mənəvi əlaqəmizi gücləndirməyə fürsət verir. İkinci konsepsiya bizə "AN xidmətləri üçün son cavabdehlik və səlahiyyət"in AN qruplarında olduğunu xatırladır. Məsələn, ilk dəfə kirayə üçün yetərli məbləğ yığılmaması səbəbilə, sadəcə üzvlərin ikinci dəfədə əllərini ciblərinə daha dərin saldıqlarını görmək üçün, səbətin iki dəfə ötürüldüyü bir toplantıda ola bilərik. Səbətə atdığımız pul və AN-in ehtiyacları arasında təmiz bir əlaqə olanda, çoxlarımız daha çox ianə etməyə istəkli oluruq. Hər şeydən əvvəl AN bizə aiddir və onun rifahı bizim səylərimizdən asılıdır. Xidmət sistemində problem yaranmasını gözləməyə ehtiyac yoxdur — biz istədiyimiz anda ianəmizi verə bilərik.

Həyatımızı qurtaran icmaya dəstək olmaq üçün təmənnasız ianə etməkdə mənəvi bir məmnuniyyət var. Biz ianələrimizin sağalmanı qlobal miqyasda yaymaq üçün olan səylərin bir hissəsi olacağını bilərək bacardığımız qədər ianə edirik.

## AN-ə necə maddi töhfə verəcəyimiz haqqında özümüzə verə biləcəyimiz bəzi suallar bunlardır.

- Təmizliyimizin ilk otuz günü səbətə nə qədər pul qoyduq? Birinci ilimizdə? İndi?
- Təmiz qalandan bəri maddi vəziyyətimiz necə dəyişib?
- Pulumuzu necə xərcləməyimiz bizim üçün nəyin dəyərli olduğunu əks etdirir?
- AN qruplarımızın axıcı şəkildə fəaliyyət göstərmək üçün ehtiyacları olan qədər pulu var? Qrupumuz başqa səviyyələrdə olan xidmətlər üçün ianə edə bilir?
- Əgər pulumuz olsaydı, hər xidmət səviyyəsində əsas məqsədimizi yerinə yetirmək üçün daha çox nə edilə bilərdi?
- AN-in bizə kömək etdiyi kimi, biz də başqalarına kömək etmək üçün daha çox nə edə bilərik?

## "...Və məsuliyyətlə idarə olunmalıdır."

— On Birinci Konsepsiya

AN-də hər bir xidmət səviyyəsində biz nə vaxtsa işimizi məhdud büdcə ilə yerinə yetirməyə çalışarkən çətinliklə üzləşmişik. Məsələn, Anonim Narkomanlar xidmət komitəsi büdcəyə pul gətirmək üçün səbrsizliklə konvensiyanı gözləyir. Lakin hava heç kimin səyahət edə bilməyəcəyi qədər pisləşir və konvensiya gözləniləndən çox daha az pul gətirir. Otel və digər xərclər daha əvvəldən ödənildiyinə görə konvensiya pul itirdi. Nəticə olaraq, büdcə dolmayacaq, ədəbiyyat sifarişləri kəsiləcək və ya daha az toplantı cədvəli çap olunacaq. Etibarlı xidmətçilər vəziyyətin daha yaxşı necə həll oluna biləcəyi və ya qalan az pulun necə istifadə ediləcəyi ilə bağlı müzakirə aparırlar. Belə bir itkini bərpa etmək aylar, hətta illər çəkə bilər.

Bu ssenari AN maliyyə mənbələri və bu büdcələrin məsuliyyətli idarə olunması haqqında suallar yaradır. Xidmətlərimiz üçün lazım olan vəsait üzvlərimizin təmənnasız ianələrindən, həmçinin tədbirlər, məhsul və ədəbiyyat satışları kimi öz səylərimizin gəlirindən əldə edilir. Lakin müəyyən bir nöqtədə bu səylər bizi əsas, asılıların digər asılılara təmənnasız yardımı prinsipimizdən uzaqlaşdıra bilər. Coşğu və kreativliyimizlə bəzən əsas məqsədimizlə az əlaqəsi olan və ya əlaqəsi olmayan tədbirlər və ya ianə toplama ideyaları təklif edirik və buna görə də bu cür ideyalar bizə uyğun sayılmır. Qrup vicdanı bu məsələləri aydınlaşdırmaq və düzgün balans yaratmaq üçün istifadə etdiyimiz vasitədir.

Üzv ianələrinin davamlı və etibarlı axını ilə biz bu tip məsələlərlə daha az-az qarşılaşa bilərik. Onda bizim xidmət komitəmiz xəbərimizi daha əlçatan etmək üçün daha praktik, real büdcələr hazırlaya biləcək və daha etibarlı və səmərəli xidmətlər göstərəcək. Biz qruplarımızda yetərincə pul ianə edəndə və qruplarımız da hər xidmət səviyyəsinə birbaşa maddi dəstək verəndə, biz öz xidmətlərimizi sabitləşdirir və toplum içində daha etibarlı varlığa çevrilirik. Xidmət komitələrimizin planlar qurmaq və onları həyata keçirmək bacarığı, tədbirlərimizə neçə nəfərin qatılması və ya neçə futbolka satılması kimi nəzarətimizdə olmayan amillərdən asılı olmaq məcburiyyətində deyil. Böyük qazanc əldə etmək təzyiqindən azad olduqda, tədbirlərimiz sağalmanı qeyd etməyə və xəbərimizi paylaşmağa fokuslana bilər.




Amma resurslarımızın sabitliyi bu hekayənin yalnız bir hissəsidir. Sahib olduqlarımızın qayğısına qalmaq da AN-də öz imkanlarına arxalanmağın vacib bir hissəsidir. Resurslarımız məhduddur, ona görə də onları ağıllı şəkildə istifadə etməliyik. Xidmət sistemimizin uğurlu olmasını istəyiriksə, bu işin görülməsi üçün lazım olan pulu, həmçinin vaxtı və enerjini təmin etməliyik. Xidmət sisteminə ötürdüyümüz pul hər hansı bir komitəyə məxsus deyil; AN-ə məxsusdur. Konsepsiyalarımız bizə xatırladır: "Xidmət strukturumuzun bütün səviyyələri qruplardan birbaşa maddi dəstək aldıqda, onlar arasında ortaq məsuliyyət bağları güclənir." (On Birinci Konsepsiya mətni) Üzvlər olaraq ianə etdiyimiz pulun məsuliyyətli şəkildə istifadə olunmasından əmin olmaq bizim öhdəliyimizdir: ehtiyaclarımızı önə çıxararaq,

xidmət göstərilməsinin daha sərfəli üsullarını axtararaq, bacarıqlı və təcrübəli etibarlı xidmətçilər seçərək, şəffaf maliyyə hesabatları tələbində israrlı olaraq, qruplarımızı və komitələrimizi böyük məbləğləri özlərində saxlamamağa təşviq edərək buna nail ola bilərik. On Birinci Konsepsiyamız AN vəsaitlərininməsuliyyətliistifadəsininvacibliyindən bəhs edir. Üzvlər olaraq məsuliyyətlərimizi yerinə yetirdikdə, bizi birləşdirən bağları gücləndiririk. Verdiyimiz ianələrin fərq yaratdığını görürük və xidmət sistemimizin fəaliyyət göstərməsi üçün lazım olan resurslara sahib olub-olmadığından xəbərimiz olur.

Nəhayət, Yeddinci Ənənəmizdə ifadə olunan, Anonim Narkomanlarda öz imkanlarına arxalanmaq prinsipi bizə xəbərimizi öz şərtlərimizlə çatdırmağa imkan verir. İkinci Konsepsiyamızın mətni əsas məqsədimizi irəli aparan xidmətləri maliyyələşdirmə məsuliyyətini aydın şəkildə müəyyən edir: “Qruplar müəyyən tapşırıqları yerinə yetirmək üçün xidmət strukturunu yaratdıqlarına görə, lazım olan vəsaiti təmin etməkdən də məsuldurlar.” Qruplarımız, biz xarici təsirlərə və nəzarətə məruz qalmaqdan azad olaq deyə bütün səviyyələrdə xidmətlərimizi maliyyələşdirir. Biz AN-dən kənar heç bir ianə qəbul etmirik; hər şeyin bir bədəli var.

AN-də öz imkanlarına arxalanmaq bizə verilmiş hədiyyənin — aktiv asılılıqdan azadlıq və yeni həyat yolu fürsətinin — qayğısına qalmaq deməkdir.

> “Birlikdə biz, asılılıq kabusundan qurtulmağa çalışan hər bir asılı üçün sağalmanın əlçatan olmasını təmin edə bilərik.”

.

## Töhfə verməyin yolları

- Gəl və yeni gələni qarşıla!
- Zalı süpür, stulları yığmağa kömək et və ya zibil qabını boşalt. Toplantı otağını tərk edəndə, otaq gəldiyimiz vəziyyətilə ən azı eyni, hətta daha təmiz vəziyyətdə olmalıdır.
- Qrupun və ya xidmət komitələrinin ehtiyacı ola biləcək istənilən əşya və ləvazimatlara və ya qrupdakı xidmətinə vaxtını və enerjini sərf et.
- İştirak etdiyin toplantılarda ianə et. Dollar, funt, avro və ya hər hansı başqa valyutanın bu gün əvvəlki kimi çox şey ala bilmədiyini xatırla.
- Təmizlik yubileylərində ev qrupuna pul və ya ədəbiyyat ianələri və ya hər təmiz il üçün ANDX-nə ianələr və ya hər ikisini et.
- Xidmətin hər səviyyəsinə birbaşa töhfə ver.
- www.na.org saytına daxil olub AN Dünya Xidmətlərinə avtomatik, mütəmadi ödəniş qur.
- Bəzi üzvlər vəsiyyət və ya miraslarında AN-ə müəyyən məbləğ ayırır və ya vəfat etmiş üzvün xatirəsinə ianə edirlər.
- Xidmətdə ol.

*Qrupların toplantılarda yığılan pulları necə istifadə etməsi haqqında məlumat üçün* Funding NA Services *MB #28-ə bax.*

Copyright © 2026 by
Narcotics Anonymous World Services, Inc.
Bütün hüquqlar qorunur

**World Service Office**
PO Box 9999
Van Nuys, CA 91409 USA
**TEL** +1/818 773-9999
**WEB** www.na.org

**World Service Office–Canada**
Mississauga, Ontario

**World Service Office–Europe**
Brussels, Belgium
**TEL** +32/2/646-6012

**World Service Office–Iran**
Tehran, Iran
www.wsoiran.org

Bu AN İcmasının təsdiq etdiyi ədəbiyyatın tərcüməsidir

Narcotics Anonymous, , , , və The NA Way
Narcotics Anonymous World Services, Incorporated-in
qeydiyyata alınmış əmtəə nişanlarıdır.

ISBN 9781633805163 Azerbaijani 2/26
WSO Catalog Item No. AZ3124